**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

**ƏMR**

561/V №-li

**Bakı şəhəri** «30». 12. 2020-ci il

***2020/2021-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyasında fəaliyyət göstərəcək Apellyasiya komissiyasının tərkibinin təsdiq edilməsi barədə***

Azərbaycan Respublikası Təhsil Nazirinin 1059 saylı 11.09.2008-ci il tarixli əmri ilə təsdiq edilmiş " Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında" Əsasnamənin 16-cı bəndini əsas tutaraq

*əmr edirəm:*

**I.** Universitetdə 2020/21-ci tədris ilinin qış imtahan sessiyasında imtahanlar zamanı baş verə biləcək münaqişələri aradan qaldırmaq üçün Apellyasiya komissiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

1.E.K.Qasımov - Histologiya,embriologiya və sitologiya kafedrasının professoru, sədr

2.E.H.Kərimli - Tələbə həmkarlar komitəsinin sədri.

3.C.İ.İsayev - Farmakoqnoziya və botanika kafedrasının müdiri, professor

4.İ.V.Şahverdiyeva - Histologiya,embriologiya və sitologiya kafedrasının laborantı, texniki katib

**II.** Apellyasiya komissiyasına tapşırılsın:

1. Apellyasiya komissiyası öz işini onlayn formada təşkil etsin

2. Apellyasiya komissiyasının sədri qiymətindən narazı tələbənin şikayətinə baxılması üçün onlayn ərizəsini imtahan verilən gün saat 10.00-dan -18.00-dək qəbul etsin;

3.Apellyasiya komissiyası onlayn şəkildə fənn üzrə komissiyanın işinə cəlb olunmuş ekspert müəllimlərin və tələbənin iştirakı ilə cavabın təkrar baxışının keçirilməsini təmin etsin;

4.Apellyasiya komissiyası tələbənin qiymətində düzəliş aparması zərurəti yarandığı halda müvafiq qərar qəbul edərək rektora təqdimat hazırlasın;

**III.** Fakültə dekanları və kafedra müdirləri imtahan cədvəli üzrə ekspert müəllimlərin Apellyasiya komissiyasının işində iştirakını təmin etsinlər.

**IV.** Əmr çoxaldılaraq dekanlıqlar vasitəsilə kafedralara və tələbələrin nəzərinə çatdırılsın.

**V.** Əmrin icrasına nəzarət tədris və müalicə işləri üzrə prorektor prof.S.C.Əliyevə həvalə edilsin.

**Rektor** **professor Gəray Gəraybəyli**

ƏSLİ İLƏ DÜZDÜR
ATU KADRLAR ŞÖBƏSİNİN
Müdiri